# Əziz Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş orijinal biblioqrafik informasiya nəşri

**Görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinin araşdırılması, sistemləşdirilərək ümumiləşdirilməsi, demək olar ki, bütün humanitar və sosial elmlərin aktual tədqiqat obyektlərindən biri olmuşdur. Əksər humanitar və sosial elmlər, o cümlədən biblioqrafiyaşünaslıq sahəsində böyük elm, maarif, mədəniyyət, ədəbiyyat, incəsənət, siyasət və dövlət xadimlərinin keçdiyi həyat yolu, fəaliyyəti, xidmətləri və s. kimi aktual problemlərə dair tədqiqatlar aparılmış, bunun nəticəsində sanballı əsərlər nəşr olunmuşdur.**

Azərbaycanda M.F.Axundov adına Milli Kitabxana, AMEA Mərkəzi Elmi Kitabxanası kimi böyük kitabxana-biblioqrafiya və informasiya mərkəzlərinin biblioqrafik informasiya fəaliyyətinin əsas istiqamətlərindən birini məhz şəxsi biblioqrafik göstəricilərin hazırlanması təşkil edir. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə, AMEA Mərkəzi Elmi Kitabxanası isə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə şəxsi biblioqrafik göstəricilər hazırlayır. Bu vəsaitlər informasiya-soraq xarakteri daşıyır və konkret şəxsiyyətin fəaliyyət sahəsinin ən operativ, dəqiq, zəngin və sistemli informasiya bazası rolunu oynayır.

M.F.Axundov adına Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə hazırladığı şəxsi biblioqrafik göstəricilər sırasında cari ildə çap olunan, Azərbaycan xalqının böyük oğlu, görkəmli elm, dövlət və siyasi xadimi, qabaqcıl səhiyyə və səhiyyə təhsili təşkilatçısı Əziz Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Əziz Əliyev" adlı şəxsi biblioqrafik göstəricisidir. Əziz Əliyevin anadan olmasının 120 illiyi münasibətilə hazırlanan bu fundamental biblioqrafik göstəricini onun həyat və fəaliyyətinə dair ən dolğun, sistemli, dəqiq və orijinal informasiya məhsulu hesab etmək olar.

Biblioqrafik göstəricinin tərtibçiləri M.Vəliyeva, M.İbrahimova, G.Misirova, ixtisas redaktoru və buraxılışa məsul Əməkdar mədəniyyət işçisi, professor K.Tahirov, redaktoru Əməkdar mədəniyyət işçisi G.Səfərəliyevadır.

Biblioqrafik göstərici Azərbaycan və rus dillərində tərtib edilmiş, materiallar bölmələr daxilində xronoloji prinsiplə, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Biblioqrafik göstərici öz elmi-nəzəri, metodiki və praktiki mahiyyəti etibarilə müasir biblioqrafiyaşünaslığın müddəalarına uyğun mükəmməl hazırlanmış, yüksək dizayn və nəfis tərtibatla çap olunmuşdur. Biblioqrafik göstəricidə ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 18 noyabr 2016-cı il tarixli sərəncamının mətni verilmişdir. Daha sonra "Tərtibçidən" adlı hissədə biblioqrafik göstəricinin strukturu, istifadə qaydaları və s. haqqında məlumat təqdim olunmuşdur.

Biblioqrafik göstəricidə xüsusilə diqqəti cəlb edən əsas məqamlardan biri xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin Əziz Əliyevin 100 illik yubileyi gecəsində tarixi nitqinin mətninin verilməsidir. Olduqca böyük məntiqi, elmi-nəzəri və ideoloji mahiyyət kəsb edən bu məruzənin verilməsi tərtibçilərin və göstəricinin buraxılışına məsul olan şəxslərin ciddi elmi-nəzəri və ideoloji hazırlığından, yüksək peşə kompetensiyasından xəbər verir.

Ulu öndər Heydər Əliyevin 16 may 1997-ci il tarixində Əziz Əliyevin 100 illik yubileyi gecəsindəki bu tarixi nitqi böyük dövlət və elm xadiminin həyat və fəaliyyəti, bütöv şəxsiyyəti haqqında ən dolğun, mötəbər, obyektiv mənbə kimi olduqca əlamətdardır. Bu, həm də Əziz Əliyevə - Azərbaycan və Dağıstan xalqlarının elmi-pedaqoji, siyasi-ictimai həyatında böyük rol oynayan, Azərbaycanda elmin, səhiyyənin, dövlət idarəçiliyinin inkişafında müstəsna xidmətləri olan, eləcə də Dağıstan xalqının Böyük Vətən Müharibəsində düşdüyü ağır çətinliklərdən xilas olmasında, Azərbaycan və Dağıstan arasında dostluq və əməkdaşlıq münasibətlərinin yaradılması və inkişaf etdirilməsində fədakar əməyi olan, cənublu soydaşlarımızın şimallı qardaşları ilə mədəni əlaqələrinin yaradılmasında ciddi səylər göstərən görkəmli şəxsiyyətə, humanist, sadə, qayğıkeş, dəyanətli Vətən oğluna verilən ən yüksək siyasi qiymət kimi də qiymətləndirilməlidir. Deyilənlərə sübut kimi ulu öndərin yuxarıda qeyd olunan tarixi nitqindən kiçik bir parçanı misal göstərmək olar: "...Bizim üçün xüsusi əhəmiyyəti olan odur ki, Azərbaycan xalqının oğlu Əziz Əliyev yüksək bacarığını, fayda vermək qabiliyyətini yalnız təkcə öz respublikasında, ölkəsində nümayiş etdirməmişdir. O, müharibə illərində İranda çox ağır işi uğurla yerinə yetirmiş, Dağıstanın rəhbəri kimi son dərəcə məsuliyyətli işin öhdəsindən çox gözəl gəlmiş, Moskvada - tərkibində yaşadığımız Sovetlər İttifaqı kimi bir dövlətin paytaxtında müvəffəqiyyətlə çalışmışdır. Bizim xalqımız üçün bunun xüsusi əhəmiyyəti var, ona görə ki, Azərbaycanın ən yaxşı oğulları təkcə öz ölkəsində deyil, həm də başqa ölkələrdə, respublikalarda layiqli yer tuta bilir. Bu, hər bir azərbaycanlının qəlbində çox böyük iftixar hissi doğurur".

Ulu öndər Heydər Əliyev Əziz Əliyevin uşaqlıq, ilk gənclik, tələbəlik illərinin olduqca qayğılı keçməsini, həmin vaxtlarda kəskin hal alan erməni vəhşilikləri səbəbilə ciddi sıxıntılara, repressiyalara, dərin maddi və mənəvi sarsıntılara məruz qalmasını, lakin heç vaxt sınmamasını, əyilməməsini, hər zaman böyük çətinliklərə mətanətlə sinə gərməsini, yorulmadan çalışmasını, xalqının xoşbəxtliyi, firavan həyatı naminə hər cür problemlərin həllinə önəlik məqsədyönlü, olduqca səmərəli fəaliyyət göstərməsini bu hissədə xüsusilə belə qeyd edir: " .....Əziz Əliyev İrəvanda anadan olmuş və artıq 1918-ci ildə özü və bütün ailəsi soyqırıma, deportasiyaya məruz qalmışdır. O, ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı çox gənc yaşlarında özü görmüş və doğma diyarını tərk edərək Naxçıvana, oradan da Bakıya köçməyə məcbur olmuşdur. O, çalışır, çox iş görürdü, əvəzinə 40-cı ildə ona töhmət elan edirlər ki, guya tibb institutunu antisovet ünsürlərdən, millətçilərdən və s. təmizləməmişdir. O, müharibə vaxtı İranda, Dağıstanda nə qədər böyük işlər görmüş, Moskvada müvəffəqiyyətlə işləmiş, sonra Vətənə qayıtmışdır. Bir il sonra isə onu işdən çıxarmışdılar ki, guya valideynlərinin sosial mənşəyini bacısının İranda olmasını gizlətmişdir. Bu paradoks indi artıq bizə məlumdur. Əziz Əliyevin heç bir günahı yox idi. Hamı yaxşı bilirdi ki, əri kimi özü də İran təbəəsi olan böyük bacısı 1938-ci ildə İran təbəəli azərbaycanlılar buradan çıxarılan vaxt İrana köçməyə məcbur olmuşdur. Bu məlum idi və heç kəs bunu gizlətmirdi. Onun isə boynuna qoydular ki, bu faktı gizlətmişdir. Onun ailəsinin sosial mənşəyi də məlum idi. Onu repressiyaya məruz qoymaq üçün sadəcə nəyəsə öcəşmək lazım idi".

Biblioqrafik göstəricidə daha sonra "Vətənin fəxri və vüqarı" başlıqlı məqalə verilmişdir. Böyük təhsil təşkilatçısı, ictimai xadim, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, Milli Məclisin deputatı Əhliman Əmiraslanov tərəfindən yazılan bu hissədə Əziz Əliyevin zəngin həyatı, dolğun fəaliyyəti, səmərəli xidmətləri, ilk növbədə, görkəmli həkim, böyük tibb alimi, qabaqcıl səhiyyə təşkilatçısı kimi kompleks peşə kompetensiyasının başlıca nüansları olduqca həssas şərh edilmişdir. Burada akademik Əhliman Əmiraslanov tərəfindən Əziz Əliyevin həm də bir müəllim kimi yüksək pedaqoji keyfiyyətlərindən, humanizmindən, tələbələrə atalıq, valideynlik qayğılarından ürək dolusu söz açılmışdır. O cümlədən, məqalədə Əhliman Əmiraslanov Əziz Əliyevi qayğıkeş ailə başçısı, övladları üçün nümunəvi ata, eləcə də bütün Azərbaycan övladları üçün əlindən gəldiyi qədər atalıq qayğısını əsirgəməyən sadə, səmimi, mehriban bir şəxsiyyət kimi dəyərləndirmişdir.




Məqalədə Əziz Əliyevin Moskvada və Bakıda oxuduğu vaxtlar, ilk əmək fəaliyyəti, sonralar Azərbaycan Tibb Universitetinin inkişafında xidmətləri, eləcə də özünün bilavasitə təşəbbüsü ilə yaradılan Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun inkişafındakı xidmətləri və s. geniş təhlil edilmişdir.

Bəhs edilən məqalədə diqqəti xüsusilə cəlb edən daha bir mühüm məqam məhz Əziz Əliyevin kitaba və kitabxanaya yüksək qiymət verməsi, kitabı, kitabxananı xalqın müstəsna milli sərvəti kimi dəyərləndirməsi, kitabxanaların yaradılması və inkişafının cəmiyyət, dövlət üçün prioritet istiqamət kimi qəbul olunmasının vacibliyini qeyd etməsidir. Təsadüfi deyildir ki, məhz Əziz Əliyev bilavasitə təşəbbüskarlığı, fədakarlığı sayəsində o vaxtlar yenicə yaradılan Azərbaycan Tibb İnstitutunun nəzdində elmi kitabxananın təsis edilməsi və zənginləşdirilməsi üçün böyük tədbirlərə imza atmışdır. Akademik Ə.Əmiraslanov məqaləsində bu haqda belə yazır: "...Odur ki, Əziz Əliyev ATİ-yə rəhbərlik etdiyi ilk illərdə hər şeyi sıfırdan başlamalı olurdu ki, bu da çox vaxt tələb edir, alimin işlərini qat-qat çətinləşdirirdi. Heç bir çətinlikdən çəkinməyən Əziz Əliyev möhkəm iradə və dözüm nümayiş etdirərək Azərbaycan Dövlət Tibb İnstitutunun nəzdində tibbi kitabxana yaratmaq ideyasını reallaşdırmağa başlayıb. Onun səyi nəticəsində professor P.Rostovtsevin sədrliyi altında "Kitabxana komissiyası" yaradılıb və komissiya səmərəli fəaliyyət göstərərək, 1936-cı ildə oxuculara belə bir təlimat göndərib: "Kitabxana plan üzrə SSRİ-də nəşr olunan bütün təzə kitabları, o cümlədən dövri tibbi-bioloji ədəbiyyatı alır".

Göründüyü kimi, Azərbaycan xalqının görkəmli alimi Əziz Əliyev kitab və kitabxanaya böyük diqqət, qayğı ilə yanaşmış, dərin hörmət və məhəbbət bəsləmiş, kitabxana işinin elmin, təhsilin, eləcə də mədəniyyətin, tərbiyə prosesinin ən effektiv, optimal və səmərəli informasiya bazası kimi mühüm əhəmiyyətini dəyərli ziyalı, böyük elm və təhsil adamı, qabaqcıl ictimai-siyasi xadim kimi dərindən dərk etmiş, əlindən gəldiyi qədər bu sahənin inkişafına öz töhfələrini əsirgəməmişdir. Mən qətiyyətlə deyə bilərəm ki, məhz Əziz Əliyevin kitabxana işi sahəsindəki fəaliyyəti, xüsusilə Azərbaycan təhsilinin və səhiyyə sisteminin ən aparıcı həlqələrindən biri olan Azərbaycan Tibb Universitetinin Elmi Kitabxanasının yaradılması və inkişafındakı xidmətləri müasir kitabxanaşünaslar, biblioqraflar, informasiya mütəxəssisləri üçün əsaslı elmi-tədqiqat obyekti kimi olduqca ciddi aktuallıq kəsb edir.

Burada həmçinin Əziz Əliyevin ailəsinin, övladlarının, bu ailənin davamçılarının Azərbaycan xalqının həyatında oynadığı roldan geniş söhbət açılmış, xüsusilə bu görkəmli şəxsiyyətin qızı, ulu öndər, ümummilli lider Heydər Əliyevin sevimli həyat yoldaşı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin anası, dünyaşöhrətli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın zəngin, keşməkeşli həyatından bəhs edilmiş, olduqca böyük elmi-nəzəri və ideoloji-ictimai əhəmiyyət kəsb edən mühüm məqamlara toxunulmuşdur.

Fundamental biblioqrafik göstəricinin "Əziz Əliyevin həyat və fəaliyyətinin əsas tarixləri" adlı bölməsində görkəmli ziyalının anadan olmasından vəfatına qədərki bütün həyat və fəaliyyətinin xronoloji prinsiplə sistemli biblioqrafik repertuarı əks etdirilmişdir.

Göstəricinin "Görkəmli şəxsiyyətlər Əziz Əliyev haqqında" adlı bölməsində Azərbaycanın və dünyanın böyük şəxsiyyətlərinin, qabaqcıl elm, maarif, mədəniyyət, siyasət, ədəbiyyat, incəsənət və ictimai xadimlərinin, özünün yetirmələrinin onun haqqında dedikləri xatirələri, örnək sözləri, təfərrüatları geniş yer alır. Təkcə bu hissədə qeyd olunan obyektiv fikirlər, xatirələr, təfərrüatlar Əziz Əliyevin bütöv şəxsiyyəti, insanlığı, humanizmi, ədaləti, obyektivliyi, səmimiliyi, alimliyi, müəllimliyi, rəhbər işçi kimi xarakteristikası, valideynliyi, ağsaqqallılığı haqqında ən orijinal mötəbər mənbələr kimi olduqca qiymətlidir. Vəsaitin mühüm göstəricilərindən biri də bu hissəyə dair materialların tərtibçilər tərəfindən gərgin əmək, çətin axtarışlar nəticəsində mükəmməlcəsinə ərsəyə gətirilib sistemləşdirilməsidir.

Vəsaitin "Əziz Əliyevin həyat və fəaliyyəti haqqında" adlanan növbəti bölməsi "Kitablar" və "Dövri mətbuatda və məcmuələrdə dərc edilmiş məqalələr" adlı alt bölmələrdən ibarətdir.

"Kitablar" adlı alt bölmədə ayrı-ayrı vaxtlarda müxtəlif dillərdə Əziz Əliyev haqqında yazılmış fundamental monoqrafik kitabların, "Dövri mətbuatda və məcmuələrdə dərc edilmiş məqalələr" adlı alt bölmədə isə Əziz Əliyev haqqında dövri mətbuatda və məcmuələrdə yazılmış çoxsaylı məqalələrin xronoloji biblioqrafik repertuarı yaradılmışdır.

Biblioqrafik göstəricinin sanballılığını, elmi-nəzəri və metodiki fundamentallığını əsaslandıran başlıca xüsusiyyətlərindən biri də burada materialların Azərbaycan dili ilə yanaşı, rus dilində də verilməsidir.

Azərbaycan dilindəki materialların, yaradılmış biblioqrafik repertuarının eynilə rus dilində verildiyi bölmə və alt bölmələrdən sonra "Köməkçi göstəricilər" adlı bölmə gəlir. Ümumiyyətlə, köməkçi göstəricilər biblioqrafik göstəricilərdə başlıca əhəmiyyət kəsb edən əsaslı nəzəri-metodiki və praktiki müddəa kimi çox önəmlidir. Hətta obrazlı desək, "Biblioqrafik göstərici konkret şəsin həyat və yaradıcılığının güzgüsüdürsə, köməkçi göstəricilər isə "Biblioqrafik vəsaitin güzgüsüdür".

İnanırıq ki, haqqında bəhs etdiyimiz biblioqrafik məhsul nəinki təkcə Əziz Əliyevin həyat və fəaliyyəti ilə maraqlanan, tədqiqat aparan, ümumiyyətlə, bu böyük şəxsiyyətlə yaxından tanış olmaq istəyən, Azərbaycanda elmin və səhiyyənin inkişafı tarixi ilə maraqlanan hər bir kəs üçün stolüstü kitaba çevriləcəkdir.

**Azad QURBANOV,**
**BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent.**